# Qarşıya qoyulan vəzifələr uğurla icra olunur

Bəzi Qərb ölkələrinin Ermənistanın haqsız iddialarını dəstəkləməsinə, onlara maddi və hərbi dəstək verməsinə baxmayaraq, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusu 44 günlük Vətən müharibəsində qalib gəldi. Otuz ilə yaxın işğal altında qalan torpaqlarımızdan düşmənlər qovuldu, orduları darmadağın edildi.

Tarixə nəzər salanda bir daha aydın olur ki, Azərbaycan dünyada yeganə ölkədir ki, ağır müharibədən dərhal sonra işğaldan azad edilən torpaqlarda bərpa və yenidənqurma işlərinə başladı. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı yeni iqtisadi rayonların yaradılması haqqında Fərman Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı işlərin yerinə yetirilməsi üçün hüquqi baza yaratdı. Həmin dövlət sənədində qeyd olunub ki, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların inkişafının təmin olunması üçün nəzərdə tutulan bütün işlər vahid proqram əsasında aparılacaq.






Respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni tərəqqisində misilsiz nailiyyətlər qazanılıb. Prezident İlham Əliyevin sədrliyi ilə aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədəki nitqi 2022-ci ildə Azərbaycan hakimiyyətinin həyatın bütün sahələrində yürüdəcəyi siyasətin, eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçiriləcək genişmiqyaslı işlərin yol xəritəsini ifadə edir. Belə ki, işğaldan azad edilən torpaqlarda gələcək inkişafın istiqamətləri ardıcıllıqla müəyyən edilib. Hər şeydən əvvəl, postmünaqişə dövründə ölkəmizdə qazanılan nailiyyətlər göz qabağındadır və rəqəmlər inkişafın və tərəqqinin ən yaxşı göstəricisidir.

Rüsvayçı və ağır şəkildə məğlubiyyətə uğrayan Ermənistan hərbi qüvvələri Qarabağda torpaqları başdan-başa minalayıblar. Biz bir düşmənlə iki cəbhədə döyüşməyə məcbur olmuşuq. Müharibəni qələbə ilə başa vursaq da, düşmənin torpaqlarımıza basdırdığı minaları zərərsizləşdirmək üçün artıq bir il yarımdır ki, sözün əsl mənasında, ciddi mübarizə aparılır. Ölümsaçan minaların təmizlənməsi üçün minaaxtaranlar əsl peşəkarlıq nümayiş etdirirlər. Şübhə yoxdur ki, Azərbaycan gec-tez mina məsələsini də həll edəcək.

Qarabağda və Şərqi Zəngəzurda işğaldan azad edilmiş ərazilərdə quruculuq, yenidənqurma işlərinin aparılması, xüsusən həmin ərazilərdə su, külək, günəş elektrik stansiyalarının inşası, yeni şosse və dəmiryollarının çəkilməsi, hava limanlarının inşası, məktəblərin tikintisi, mədəni və dini abidələrin bərpa edilməsi və düşmənin torpaqlarımıza basdırdığı minaların təmizlənməsi Azərbaycan dövlətinin gücünü göstərir. Özü də nəhəng işlərə görə heç bir ölkədən hər hansı maliyyə vəsaiti almadan bu böyük layihələri icra etmək asan məsələ deyil, bunun arxasında güclü potensial, iradə və sarsılmaz qətiyyət dayanır. Azərbaycanın bir sıra parametrlər üzrə iqtisadi göstəricilərinin yaxşılaşması, o cümlədən ümumi daxili məhsulun 6, 8%, qeyri-neft iqtisadiyyatının 10%, sənaye istehsalının 4%, xarici ticarət dövriyyəsinin 60%, ixracın, təxminən, 2 dəfə artması, xarici borcun 600 milyon dollardan çox azalması, müsbət xarici ticarət saldosunun 3 ayda 5 milyard dollardan artıq olması, vergilər və gömrük rüsumlarının toplanılmasından əldə edilən gəlirlərin artması, əməkhaqlarının və təqaüdlərin əsaslı şəkildə yüksəlməsi, əhalinin maddi rifahının nəzərəçarpacaq dərəcədə yaxşılaşması, yeni sosial və infrastruktur layihələrin həyata keçirilməsi ilin uğurlu təməlinin qoyulmasından xəbər verir.

Keçən il genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verildi, böyük infrastruktur layihələri icra edildi. Qarabağda və Şərqi Zəngəzurda ilk, həm də əsas hədəflərdən biri işğaldan azad edilən bölgələrin yol təsərrüfatının yenidən qurulmasıdır. Eyni zamanda, işğaldan azad edilən rayonlara avtomobil yollarının çəkilməsi də uğurla davam edir. Bərdə-Ağdam avtomobil yolunda işlər çox sürətlə gedir, Kəlbəcər-Laçın avtomobil yolu və təxminən 4 kilometrlik tunel və Xudafərindən Qubadlıya, oradan isə Laçına gedən magistral və Cəbrayıl-Hadrut yolu inşa olunur.

Azad edilmiş torpaqlarda keçən il 20 meqavat gücündə 4 Su Elektrik Stansiyası inşa edilib. İkisi Suqovuşanda, biri Laçın rayonunun Güləbird kəndində, biri isə Kəlbəcər rayonundakı Lev çayı üzərində. Mənfur düşmən torpaqlarımızı tərk edərkən 30-dan çox elektrik stansiyasını dağıdıb, yandırıb, o stansiyaların qalıqları erməni vəhşiliyindən xəbər verir. Qeyd edək ki, keçən il bu stansiyaların bərpasına başlanılıb. Bu il isə beş stansiya "Azərenerji" tərəfindən bərpa ediləcək və bu stansiyaların ümumi gücü 27 meqavata bərabər olacaq. Dövlət tərəfindən həyata keçirilən həyat əhəmiyyətli layihələr Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışı tezləşdirir. Keçən il azad edilmiş torpaqlarda 9 elektrik yarımstansiyası inşa edilib. Əlbəttə, bu, çox böyük göstəricidir. Şübhəsiz ki, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında, xüsusilə enerji təsərrüfatının qaydaya salınmasında azərbaycanlı iş adamları, sahibkarlar təşəbbüs və fəallıq göstərməlidirlər.

Prezident İlham Əliyev bu il martın 15-də Gülüstan sarayında Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində çıxışı zamanı deyib ki, böyük potensial işğaldan azad edilmiş ərazilərdədir. Artıq dəqiq hesablamalar aparılıb və günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Artıq ilkin addımlar da atılır, bp şirkəti ilə generasiya gücü 200 meqavatdan çox olan günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir: "Ümid edirəm ki, bu danışıqlar da uğurla nəticələnəcək. Digər böyük şirkətlər bu bölgəyə maraq göstərirlər. Bildirməliyəm ki, işğal dövründə 30 il ərzində ermənilər və Ermənistan dövləti o vaxt işğal altında olan torpaqlarda bütün infrastrukturu, bütün binaları, tarixi, dini abidələrimizi dağıtmışlar, bunu təsdiqləyən bir çox sənədlər, video-foto məlumatlar vardır. O cümlədən Kəlbəcər və Laçın rayonlarında 30-dan çox su elektrik stansiyasını məhv etmişlər və biz artıq azad edilmiş torpaqlarda genişmiqyaslı işlərə başlayaraq, o cümlədən elektroenergetika sahəsinə böyük diqqət göstərmişik".

Daha sonra dövlət başçısı deyib ki, keçən il 4 su elektrik stansiyasını bərpa etmişik: "Onların ümumi generasiya gücü 20 meqavatdır. Bu il isə 5 su elektrik stansiyasının yenidən qurulması planlaşdırılır və bu stansiyaların generasiya gücü 27 meqavat olacaqdır. Düzdür, digər stansiyalarla müqayisədə həcm o qədər də böyük deyil. Lakin bu stansiyaların ancaq Kəlbəcər və Laçın rayonlarında sayı 30-dan çox olacaqdır və bu, su elektrik stansiyalarıdır. Günəş və külək elektrik stansiyalarının yaradılması üçün təbii ki, daha böyük potensial var. Yenə də demək istəyirəm ki, bütün infrastruktur yaradılıb, daxili xətlər müasirləşdirilib, bir çox yarımstansiyalar inşa olunub, o cümlədən azad edilmiş torpaqlarda cəmi bir il ərzində 7 yarımstansiya yaradılıbdır".

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan Ağdamda, Qubadlıda, Hadrutda, Zəngilanda, Cəbrayılda, Laçında, Füzulidə, Suqovuşanda və Şuşada aparılan tikinti, bərpa və yenidənqurma işlərinin miqyası çox genişdir. Zaman Azərbaycanın xeyrinə işləyir, xalqımız Prezident İlham Əliyevin fədakar fəaliyyətini yüksək qiymətləndirir, dövlətimizin başçısını birmənalı şəkildə müdafiə edir. Bir sözlə, postmünaqişə dövründə bütün vəzifələr uğurla icra edilir. İnanırıq ki, Qarabağ və Şərqi Zəngəzur yaxın zamanlarda əsl cənnətə çevriləcək!

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2022.- 22 aprel.- S.6.